1. Faiqin oxuduğu 60 kitabın bir hissəsi tarix, bir hissəsi coğrafiya, 20%-i isə bədii ədəbiyyat kitablarıdır. Tarix kitablarının coğrafiya kitablarından 5 dəfə çox olduğunu bilərək, kitabların ayrı-ayrılıqda sayını tapın.

2. Səbətdəki almaların $\frac{1}{4}$-i götürüldükdən sonra yerdə qalan almaların $\frac{1}{6}$-ü götürülür. Daha 8 alma götürüldükdən sonra almaların yarısı səbətdə qalır. Səbətdə neçə alma var idi ?

3. Mehdi, Əli və Nadir uyğun olaraq alma, armud və gilas toplayıb satırlar. Mehdi və Əli birlikdə $50kq$ meyvə, Nadir isə $25kq$ gilas satdıqdan sonra ümumilikdə 92 manat gəlir əldə edirlər. 1kq üçün gilasın 80 qəpik, almanın 1 manat 20 qəpik, armudun isə 1 manat 50 qəpik olduğu məlumdur. Mehdi , Əli və Nadir ayrı-ayrılıqda nə qədər gəlir əldə etmişdir ?

4. Ayla küləyə qarşı saatda $40km$ qaçaraq 30 dəqiqə sonra məktəbə çatır. Məktəbdən evə qayıtmağa isə 20 dəqiqə vaxt sərf edir. Küləyin istiqamət dəyişmədiyini nəzərə alaraq , Aylanın və küləyin sürətini tapın.

5. Nuray və Fidan birlikdə çalışmaları 3 saatda bitirir. Fidan təklikdə bütün çalışmaları 5 saatda bitirdiyinə görə, Nuray təklikdə bütün tapşırıqları neçə saata bitirər ?

6. Səməd , Məleykə və Fatimənin birlikdə 110 kürəcikləri var. Səməddəki kürəciklərin sayı Məleykədə olan kürəcik sayının 4 mislidir. Fatimənin isə Məleykədən 10 ədəd az kürəciyi var. Hər birinin ayrı-ayrılıqda neçə kürəciyi var ?

7. Ayanın 40 qələmi var. Bu qələmlər sarı, yaşıl və mavi olmaqla 3 fərqli rəngdədir. Torbaya baxmadan bir qələm götürdükdə qələmin sarı olma ehtimalı $\frac{2}{5}$ , yaşıl olma ehtimalı isə mavi olma ehtimalından 2 dəfə çoxdur. Ayanın neçə yaşıl qələmi var ?

8. 18-si Almanyadan , 24-ü Fransadan , 21-i isə Hindistandan olmaqla gələn turistləri Hoteldə müxtəlif ölkələrdən gələnləri müxtəlif otaqlarda və hər otaqda bərabər sayda turist olmaq şərtilə yerləşdirmək lazımdır. Ən az neçə otaq lazımdır?

9. Zeynal topladığı almaları dostları arasında bölüşdürmək qərarına gəlir. Əgər o hər bir dostuna 6 alma versə 3 dostuna alma çatmır, hər bir dostuna 4 alma verdikdə isə 12 alma artıq qalır. Zeynal nə qədər alma toplayıb ?

10. Hüseyn müəllim şagirdlərə tətil üçün müəyyən qədər tapşırıq vermişdir. Şagirdlər hər gün eyni qədər tapşırıq yazaraq 12 gün ərzində tapşırıqları bitirməyi hədəfləyiblər. Əgər hər gün planda tutduqlarından 24 tapşırıq daha az tapşırıq yazsalar, tapşırıqları 4 dəfə gec bitirərlər. Hüseyn müəllim evə nə qədər tapşırıq vermişdir ?

**İzahı üçün toxun :** [https://youtu.be/Z_6H8auCdXE](https://youtu.be/Z_6H8auCdXE)

leibniz academy